## "Sosial Dəstək Mərkəzi" Publik Hüquqi Şəxsinin Nizamnaməsi

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində "Sosial Dəstək Mərkəzi" publik hüquqi şəxsi (bundan sonra – Mərkəz) əlilliyi olan şəxslərin, işsiz və işaxtaranların, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin məşğulluğu, sosial müdafiəsi, təminatı, sosial adaptasiyası ilə bağlı tədbirləri, həmçinin bu istiqamətdə müxtəlif sosial dəstək layihələrini həyata keçirir.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının "Publik hüquqi şəxslər haqqında" Qanununu və digər qanunları, Nazirliyin Əsasnaməsini və Azərbaycan Respublikasının Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamlarını, digər normativ hüquqi aktları, Nazirliyin qərar, əmr və sərəncamlarını və bu Nizamnaməni rəhbər tutur.

1.3. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən, dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Mərkəz ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur, bu Nizamnamədə qarşıya qoyulmuş məqsədləri həyata keçirmək üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.

1.5. Mərkəzin müstəqil balansı, istifadəsində olan əmlakı, bank hesabları, üzərində Nazirliyin adı və öz adı, "Azərbaycan Respublikasının Dövlət Gerbindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, həmçinin Azərbaycan Respublikasının Dövlət Gerbinin təsviri həkk olunmuş möhürü, müvafiq ştampları və blankları vardır.

1.6. Mərkəzin qanuna uyğun olaraq əqdlər bağlamaq, öz adından əmlak və qeyri-əmlak hüquqları əldə etmək və ya həyata keçirmək hüququ, həmçinin vəzifələri vardır. Mərkəz məhkəmədə iddiaçı və ya cavabdeh qismində çıxış edə bilər.
1.7. Mərkəz "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusu əldə edir. Mərkəzin hüquq qabiliyyətinə onun fəaliyyətinin başa çatdığı an xitam verilir.
1.8. "Sosial Dəstək Mərkəzi" publik hüquqi şəxs "Həyat Ticarət Mərkəzi Dövlət Müəssisəsinin və "Əlillərin Məişət Xidməti Cərgəsi" Dövlət Müəssisəsinin birləşməsi yolu ilə yaradılmışdır və onların hüquqi varisidir.
1.9. Mərkəz Bakı şəhərində, Binəqədi rayonu, Dərnəgül qəsəbəsi, Z.Bünyadov küçəsi, 3103-cü məhəllə ünvanında yerləşir.

## 2. MƏRKƏZİN FƏALIYYƏT ISTIQAMƏTLƏRI

2.1. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:
2.1.1. əlilliyi olan şəxslərin, işsiz və işaxtaranların, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin məşğulluğu, sosial adaptasiyası məqsədi ilə bu kateqoriyadan olan şəxslər üçün iş yerlərinin yaradılması, onların bilik və bacarıqlarının artırılması, sosial adaptasiyası üçün tədbirlər görmək;
2.1.2. əlilliyi olan şəxslərin, işsiz və işaxtaranların, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlər görmək, müxtəlif sosial dəstək layihələrini həyata keçirmək;
2.1.3. əldə etdiyi aktiv və gəlirlər hesabına əlilliyi olan şəxslərə, işsiz və işaxtaranlara, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə maddi yardım göstərmək;

## 3. MƏRKƏZİN VƏZİFƏLƏRİ VƏ HÜQUQLARI

3.1. Bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Mərkəzin vəzifələri aşağıdakılardır:
3.1.1. əlilliyi olan şəxslərin, işsiz və işaxtaranların, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin məşğulluğu, sosial müdafiəsi, təminatı, sosial adaptasiyası məqsədi ilə yeni iş yerləri yaratmaq;
3.1.2. əlilliyi olan şəxslərin, işsiz və işaxtaranların, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin məşğulluğu, sosial müdafiəsi, təminatı, sosial adaptasiyası məqsədi ilə bu kateqoriyadan olan şəxslərin bilik və bacarıqlarının artırılması üçün tədbirlər görmək;
3.1.3. əlilliyi olan şəxslərin, işsiz və işaxtaranların, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin sosial müdafiəsi və sosial təminatı ilə bağlı bu kateqoriyadan olan şəxslərə əldə etdiyi gəlirlər hesabına maddi yardımlar göstərmək;
3.1.4. əlilliyi olan şəxslərin, işsiz və işaxtaranların, habelə sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin məşğulluğu, sosial müdafiəsi, təminatı, sosial adaptasiyası məqsədi ilə birgə fəaliyyət müqavilələri bağlamaq, bu müqavilələrdən gəlir əldə etmək;
3.1.5. kargüzarlığı və vətəndaşların qəbulunu müvafiq normativ hüquqi aktların tələblərinə uyğun həyata keçirmək;
3.1.6. Mərkəzin fəaliyyət istiqamətlərinə uyğun olaraq sosial dəstək proqramlarını Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

3.1.7. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.8. Mərkəzə müraciət etmiş şəxslərin hüquq və mənafelərinin müdafiəsini təmin etmək;

3.1.9. Mərkəzdə sanitariya-gigiyena və əks epidemik rejimin norma və qaydalarına riayət olunmasını təmin etmək;

3.1.10. Mərkəzdə yanğından mühafizə və əməyin mühafizəsi qaydalarına riayət olunmasını təmin etmək;

3.1.11. Mərkəzin Nizamnaməsi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Mərkəz öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

3.2.1. fəaliyyətinə dair təhlillər və ümumiləşdirmələr aparmaq, Mərkəzin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı rəy və təkliflər vermək;

3.2.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar dövlət və yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərlə əməkdaşlıq etmək, həmin qurumlara müvafiq qaydada sorğular göndərmək və məlumatlar (sənədlər) almaq;

3.2.3. fəaliyyət istiqamətlərinə uyğun olaraq ölkə daxilində keçirilən müxtəlif tədbirlərdə iştirak etmək;

3.2.4. əlilliyi olan şəxslərin, işsiz və işaxtaranların, habelə, sosial müdafiəyə ehtiyacı olan digər şəxslərin məşğulluğunun təmin edilməsi, onların bilik və bacarıqlarının artırılması, sosial adaptasiyası, o cümlədən, sosial müdafiəsi və sosial təminatı ilə bağlı təkliflər vermək;

3.2.5. göstərilən xidmətlərin monitorinqini aparmaq;

3.2.6. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək barədə Nazirliyə təkliflər vermək;

3.2.7. əməkdaşlarının mükafatlara təqdim edilməsi, onların həvəsləndirilməsi üçün Nazirliyə təkliflər vermək;

3.2.8. Nazirliyin razılığı ilə təsərrüfat cəmiyyətləri yaratmaq və ya onlarda iştirak etmək;

3.2.9. bu Nizamnamə ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 4. MƏRKƏZİN IDARƏ OLUNMASI

4.1. Mərkəz öz fəaliyyətində mütərəqqi korporativ idarəetmə standartlarını tətbiq edir.

4.2. Mərkəzin idarəetmə forması kimi təkbaşçı icra orqanı olan direktor müəyyən edilir.

4.3. Təsisçinin "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsi ilə müəyyən edilmiş aşağıdakı səlahiyyətlərini Nazirlik həyata keçirir:

4.3.1. nizamnamənin təsdiq olunması və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.3.2. Mərkəzin inkişaf istiqamətlərinin müəyyən edilməsi, illik maliyyə hesabatlarının təsdiqi;

4.3.3. Mərkəzin strukturunun, əməyin ödənişi fondunun, işçilərin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) təsdiqi;

4.3.4. Mərkəzin təsərrüfat cəmiyyətlərinin yaradılmasına və ya onlarda iştirak etməyə, idarə, filial və nümayəndəliklərin yaradılmasına razılıq verilməsi;

4.3.5. Mərkəzin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), habelə Mərkəzə aidiyyəti olan şəxslərlə əqdin (əqdin dəyəri aktivlərin 5 faiz və daha çox hissəsini təşkil etdikdə) bağlanmasına razılıq verilməsi;

4.3.6. Mərkəzin yenidən təşkili və ləğv edilməsi;

4.3.7. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 3.3-cü maddəsində nəzərdə tutulmuş qərarın qəbul edilməsi.

4.4. Mərkəzin fəaliyyətinə ümumi rəhbərliyi direktor həyata keçirir. Mərkəzin direktoru, direktorun müavini (müavinləri) Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

4.5. Direktor müvəqqəti olmadıqda onun səlahiyyətlərini direktorun müəyyən etdiyi müavini həyata keçirir.

4.6. Direktor aşağıdakı vəzifələri yerinə yetirir:

4.6.1.Mərkəzin fəaliyyətini təşkil edir və onun fəaliyyətinə nəzarət edir;

4.6.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə bağlı Nazirliyə təkliflər verir və sənədlər təqdim edir;

4.6.3. Mərkəzin strateji məqsədlərinin və planlarının icrasına nəzarət edir;

4.6.4. xalis aktivlərinin 25 faizindən artıq olan əqdin (xüsusi əhəmiyyətli əqdin) və aidiyyəti şəxslə dəyəri Mərkəzin aktivlərinin 5 faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılması haqqında Nazirliyin razılığı ilə, 5 faizinədək hissəsini təşkil edən əqdin bağlanılması haqqında isə müstəqil qərar qəbul edir;

4.6.5. cari və operativ məsələlər barədə Nazirliyi məlumatlandırır;

4.6.6. Mərkəzə ayrılan büdcə vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin edir;

4.6.7. Mərkəzin strukturu, ştat cədvəli və işçilərin say həddi, xərclər smetası ilə bağlı Nazirliyə təkliflər verir;

4.6.8. Mərkəzin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.6.9. Mərkəzin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.6.10. Mərkəzin fəaliyyətinə dair daxili qaydaları, (o cümlədən maraqlar toqquşmasının istisna olunması qaydasını), habelə idarə, filial və nümayəndəliklərinin əsasnamələrinin, törəmə təsərrüfat cəmiyyətlərinin nizamnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq edir;

4.6.11. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Mərkəzin Aparatının və digər struktur bölmələrinin strukturunun, ştat cədvəlinin və xərclər smetasının Nazirliklə razılaşdırmaqla təsdiq edir;

4.6.12. Mərkəzin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.6.13. Mərkəzin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərar və göstərişlərini ləğv edir;

4.6.14. bu Nizamnamə ilə müəyyən edilmiş hallar istisna olmaqla, Mərkəzin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların

işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə Nazirliklə razılaşdırmaqla qərarlar qəbul edir;

4.6.15. işçilərdən əmək müqaviləsi ilə müəyyən edilmiş şərtlərin, öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini tələb edir;

4.6.16. Mərkəzin işçi heyətinin peşəkarlıq səviyyəsinin və ixtisaslarının artırılması sahəsində tədbirlər həyata keçirir;

4.6.17. Mərkəzin işçiləri barədə həvəsləndirmə və intizam tənbehi tədbirlərinin görülməsi barədə Nazirliyə təkliflər verir;

4.6.18. Mərkəzin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.6.19. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində Mərkəzin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.6.20. Mərkəzin işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməkhaqqı fondu çərçivəsində təşkil edir;

4.6.21. fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, həmçinin qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.6.22. Mərkəzdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.6.23. Nazirliyin razılığı ilə Mərkəzin təsərrüfat cəmiyyətlərinin yaradılması və ya onlarda iştirak barədə, həmçinin Mərkəzin idarə, filial və nümayəndəliklərinin yaradılması barədə qərar qəbul edir;

4.6.24. Mərkəzdə vətəndaşların qəbulunu və müraciətlərinə baxılmasını təmin edir.

4.7. Mərkəzin direktoru və onun müavini (müavinləri) Nazirliyin və Mərkəzin adına xələl gətirə biləcək hərəkətlərə və çıxışlara yol verməməli, həmçinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-cu maddəsi ilə müəyyən edilmiş digər tələbləri yerinə yetirməlidirlər.

## 5. MƏRKƏZİN NİZAMNAMƏ FONDU, ƏMLAKI VƏ MALİYYƏ FƏALİYYƏTİ

5.1. Mərkəzin nizamnamə fondu 3 270 212,53 (üç milyon iki yüz yetmiş min iki yüz on iki manat əlli üç qəpik) manatdır.

5.2. Mərkəzin əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi əmlakdan, dövlət büdcəsindən ayrılan vəsaitdən, büdcədənkənar fondların vəsaitindən, fəaliyyətindən əldə edilmiş gəlirdən, ianələrdən, qrantlardan və qanunla qadağan edilməyən digər vəsaitlərdən formalaşır.

5.3. Mərkəz qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra Mərkəzin, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

5.4. Mərkəz öz əmlakından yalnız bu Nizamnamə ilə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir.

5.5. Mərkəz balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında"

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə müəyyən edilmiş qaydada həyata keçirir.

5.6. Bu Nizamnamənin 5.5-ci bəndi nəzərə alınmaqla, Mərkəz əmlakı üzərində sahiblik və istifadə hüquqlarını məqsədlərinə uyğun olaraq sərbəst, sərəncam vermək hüququnu isə Nazirliklə razılaşdırmaqla həyata keçirir.

5.7. Mərkəz mülkiyyətində və istifadəsində olan əmlakın saxlanılması, qorunması və ondan səmərəli istifadə edilməsi üçün məsuliyyət daşıyır. Mərkəzin əmlakının idarə olunması ilə bağlı fəaliyyətinə nəzarəti Nazirlik həyata keçirir.

5.8. Mərkəzin məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

## 6. MƏRKƏZİN FƏALİYYƏTİNƏ NƏZARƏTİN FORMASI VƏ ƏHATƏ DAİRƏSİ

6.1. Mərkəzin fəaliyyətinə nəzarəti Nazirlik həyata keçirir.

6.2. Mərkəz fəaliyyətinə dair illik hesabatı Nazirliyə təqdim edir.

6.3. Mərkəz öz maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

6.4. Mərkəz Nazirliyin razılığı ilə öz fəaliyyətinin müstəqil surətdə yoxlanılması üçün kənar auditor cəlb edir.

## 7. MƏRKƏZDƏ UÇOT VƏ HESABAT

7.1. Mərkəz "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib, təqdim və dərc edir.

7.2. Mərkəzdə "Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq statistik hesabatlar tərtib və təqdim edir.

7.3. Mərkəz idarə, filial, nümayəndəlik və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanılmasını təmin edir.

## 8. MƏRKƏZİN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞV OLUNMASI

8.1. Mərkəzin yenidən təşkili və ləğvi Nazirlik tərəfindən həyata keçirilir.